

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 yanvar 2025-ci il №7 (2916) https://mod.gov.az Qiyməti 30 qəpik


Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram**:

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.
4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 yanvar 2025-ci il

# Ölkəmizin hava məkanı etibarlı şəkildə qorunur





1992-ci il fevralın 14-də təsis olunan Hərbi Hava Qüvvələri Azərbaycan Ordusunun xüsusi qoşun növüdür. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə olduğu kimi, hərbi sahədə də islahatlar aparıldı. Onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı məqsədyönlü islahatlar çərçivəsində Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələrinin arsenalı da ən müasir təyyarə, helikopter və pilotsuz uçuş aparatları ilə zənginləşdirildi. Dünyanın müxtəlif ölkələrində müvafiq ixtisasartırma kurslarında və təlimlərdə iştirak edən hərbi pilotlarımız öz peşəkarlıqlarını gündən-günə artırdılar. Bunun məntiqi nəticəsi olaraq, 2016-cı ilin Aprel döyüşlərində Hərbi Hava Qüvvələri düşmənə uğurlu sarsıdıcı zərbələr endirdi.

2020-ci ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı başlayan Vətən müharibəsində digər qoşun növləri kimi, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələri uğurla iştirak edərək Böyük Qələbənin qazanılmasında pay sahibi oldular. 44 günlük Vətən müharibəsində hərbi şahinlərimiz igidlik və şücaət nümunələri göstərərək adlarını Zəfər tariximizin səhifələrinə qızıl hərflərlə yazdılar.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir



*2025-ci ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir.*

Müdafiə Nazirliyi xəbər verir ki, plana uyğun olaraq, hərbi vəzifəlilərin nizam-intizamını və mənəvi-psixoloji vəziyyətini artırmaq məqsədilə ictimai-siyasi hazırlıq məşğələləri keçirilib.

**(Ardı 2-ci səhifədə)**

# ƏÜO-da gənc əsgərlərin hazırlığına xüsusi diqqət göstərilir

*Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) xidmətə yeni qəbul olunan gənc əsgərlərə daim qayğı göstərilir, onların adaptasiya prosesinə xüsusi həssaslıqla yanaşılır və hazırlığına diqqət yetirilir.*

Müdafiə Nazirliyi xəbər verir ki, çağırışçılar tibb məntəqəsində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə edildikdən sonra mövsümə uyğun hərbi geyim və digər təminat növləri ilə təmin olunurlar.

Proqrama əsasən, gənc əsgərlərlə sıra və fiziki hazırlıq üzrə dərslər, eləcə də döyüş hazırlığı üzrə məşğələlər keçirilir.

Bu məqsədlə onlarla nizamnamə hazırlığı, hərbi qanunvericilik, hərbi intizam qaydaları, təhlükəsizlik qaydaları, həmçinin sıra, fiziki və atəş hazırlığı üzrə məşğələlər keçirilir.

Bundan başqa, gənc əsgərlərin sağlamlığının diqqət mərkəzində saxlanılması və normalara uyğun keyfiyyətli qidalanmasının təşkili məqsədilə əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara tam riayət olunmaqla bütün zəruri tədbirlər həyata keçirilir.

Həmçinin hərbi qulluqçuların mədəni-asudə vaxtının səmərəli təşkili məqsədilə də tədbirlər təşkil edilir.





6-cı səhifədə

Şanlı hərb tariximizin unudulmaz sərkərdəsi



6-cı səhifədə

Xocalının qəhrəman komandiri




8-ci səhifədə

MOİK təmsilçisi ağırlıqqaldırma üzrə Azərbaycan çempionatında birinci olub



8-ci səhifədə

Komandamızın məğlubiyyətsizlik seriyası 5 oyuna çatıb

# "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır**:

**Maddə 1**. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin birinci hissəsinin "a" bəndinin dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduqlarına görə xaric edilən və ya müddətli həqiqi hərbi xidmət keçmiş şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər. Bu zaman həmin kursantların hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində aldıqları təhsil müddətinin hər 4 günü 1 gün sayılmaqla müddətli həqiqi hərbi xidmət müddətinə hesablanır və onlar xidmət müddəti başa çatdıqda müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən ehtiyata buraxılırlar.";

1.2. 16-cı maddənin birinci hissəsinin "a" bəndinin üçüncü abzasında "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə əvəz edilsin;

1.3. 26-cı maddə üzrə:

1.3.1. mətni birinci hissə hesab edilsin;

1.3.2. birinci hissə üzrə:

1.3.2.1. birinci abzasda "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı" sözləri ilə əvəz edilsin;

1.3.2.2. "b" bəndinə hər üç halda "təhsil" sözündən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

1.3.2.3. "v" bəndində "bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar" sözləri "tam orta təhsilli və bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular" sözləri ilə əvəz edilsin;

1.3.3. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu maddənin birinci hissəsinin "b" bəndinə uyğun olaraq hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.";

1.4. 32-ci maddə üzrə:

1.4.1. birinci hissənin "v" bəndində "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə əvəz edilsin;

1.4.2. altıncı hissədə "oxumaq" sözü "təhsilini davam etdirmək" sözləri ilə, "hərbi məktəb, gizir, miçman məktəbləri (hərbi hissə komandirləri)" sözləri "hərbi təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

1.5. 38-ci maddənin birinci hissəsi üzrə:

1.5.1. "e" bəndində "tam orta" sözləri "orta ixtisas" sözləri ilə və həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.5.2. aşağıdakı məzmunda "j" bəndi əlavə edilsin:

"j) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçularla.";

1.6. 53-cü və 54-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"53. "Kiçik gizir" və "kiçik miçman" hərbi rütbələri bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "a", "b", "q" və "e" bəndlərinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən orta ixtisas təhsilli şəxslərə və bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "v" bəndinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən tam orta təhsilli şəxslərə verilir;

54. "Gizir" və "miçman" hərbi rütbələri bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "a", "q" və "e" bəndlərinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən ali təhsilli şəxslərə, bu Əsasnamənin 38-ci maddəsinin birinci hissəsinin "j" bəndinə uyğun olaraq gizir və miçmanların həqiqi hərbi xidmətinə qəbul edilən orta ixtisas təhsilli şəxslərə, həmçinin "gizir", "miçman", "baş gizir", "baş miçman" rütbələri nəzərdə tutulmuş vəzifələrə təyin olunmuş və növbəti hərbi rütbə verilməsinə layiq olan kiçik gizir və kiçik miçmanlara verilir.";

1.7. 75-ci maddənin ikinci hissəsində "Gizir" sözü "Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini və gizir" sözləri ilə əvəz edilsin;

1.8. 132-ci maddənin birinci hissəsinə "görə" sözündən sonra "gizir (miçman) və ya" sözləri əlavə edilsin;

1.9. aşağıdakı məzmunda 150-1-ci maddə əlavə edilsin:

"150-1. Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantlar, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-41.0.8-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata və həmin Qanunun 42.0.3-cü və 42.0.5-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən istefaya buraxılan həmin təhsil müəssisələrini bitirmiş kadr zabitlər və gizirlər (miçmanlar) (təqvim hesabı ilə azı 10 il zabit heyəti vəzifələrində xidmət etmiş kadr zabitlər və təqvim hesabı ilə azı 5 il gizir (miçman) heyəti vəzifələrində xidmət etmiş gizirlər (miçmanlar) istisna olmaqla) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 42-1-ci maddəsinə uyğun olaraq ödəməlidirlər.".

**Maddə 2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 28.4-cü maddə üzrə:

2.1.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən (18 yaşınadək və ya xəstəliyi ilə əlaqədar hərbi xidmətə yararsız hesab olunduqlarına görə xaric edilən və ya müddətli həqiqi hərbi xidmət keçmiş şəxslər istisna olmaqla) kursantlar müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilirlər.";

2.1.2. ikinci cümləyə "ali təhsil" sözlərindən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

2.2. 36-cı maddə üzrə:

2.2.1. 36.1.2-ci maddəyə hər üç halda "təhsil" sözündən sonra "və ya orta ixtisas təhsili" sözləri əlavə edilsin;

2.2.2. 36.1.3-cü maddəyə "çavuşlar," sözündən sonra "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçular," sözləri əlavə edilsin;

2.2.3. "Qeyd" hissənin mətni 2-ci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda 1-ci bənd əlavə edilsin:

"1. Bu Qanunun 36.1.2-ci maddəsinə uyğun olaraq hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrinə qəbul edilərkən 18 yaşı tamam olmayan şəxslərlə bağlaşma onların qanuni nümayəndələrinin - valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır.";

2.3. aşağıdakı məzmunda 42-1-ci maddə əlavə edilsin:

"Maddə 42-1. **Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin əvəzinin ödənilməsi**

42-1.1. Müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantlar, habelə bu Qanunun 41.0.6-41.0.8-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata və bu Qanunun 42.0.3-cü və 42.0.5-ci maddələrinə əsasən həqiqi hərbi xidmətdən istefaya buraxılan həmin təhsil müəssisələrini bitirmiş kadr zabitlər və gizirlər (miçmanlar) (təqvim hesabı ilə azı 10 il zabit heyəti vəzifələrində xidmət etmiş kadr zabitlər və təqvim hesabı ilə azı 5 il gizir (miçman) heyəti vəzifələrində xidmət etmiş gizirlər (miçmanlar) istisna olmaqla) hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəməlidirlər. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin hesablanması, əvəzinin ödənilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

42-1.2. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi bu Qanunun 42-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda bağlaşmada nəzərdə tutulur.

42-1.3. Hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil və ya orta ixtisas təhsili müəssisələrində kursantların hazırlanmasına çəkilmiş xərclər bu Qanunun 42-1.1-ci maddəsinə əsasən müəyyən edilmiş qaydada nəzərdə tutulmuş müddətdə könüllü ödənilmədikdə məhkəmə qaydasında tutulur.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 dekabr 2024-cü il

# Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir







**(Əvvəli 1-ci səhifədə)**

Məşğələlər tibb hazırlığı üzrə şəxsi heyətin maarifləndirilməsi və fəaliyyətlər zamanı ilkin tibbi yardımın düzgün və vaxtında göstərilməsi üçün praktiki məşqlərin yerinə yetirilməsi ilə davam edib.

Sonra təlimə cəlb olunan heyətlə atəş hazırlığı məşğələləri keçirilərək, onlara atıcı silahların və əl qumbaraatanlarının taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları öyrədilib və praktiki atış çalışmaları icra edilib.

Hərbi vəzifəlilərlə keçirilən təlim toplanışının əsas məqsədi ehtiyatdan çağırılanların bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi, praktiki vərdişlərinin təkmilləşdirilməsi sayəsində döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasıdır.

# Müdafiə naziri Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüşüb

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Səudiyyə Ərəbistanı Krallığı Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Faiyad bin Hamed Al Rovailinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*





Müdafiə naziri qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı Krallığı arasında münasibətlərin dostluq və qardaşlıq üzərində qurulduğunu qeyd edən nazir dövlət rəhbərliyi tərəfindən bu əlaqələrin inkişaf etdirilməsinə xüsusi önəm verildiyini və daima diqqət mərkəzində saxlanıldığını bildirib.

General Faiyad bin Hamed Al Rovaili ölkəmizə səfərindən məmnun olduğunu qeyd edərək göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Qonaq bu cür səfərlərin hərbi əlaqələrimizin genişlənməsində müstəsna rolu olduğunu vurğulayıb.

Görüş zamanı, həmçinin hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Baş Qərargahda təşkil edilən rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ilə görüşüb.

Baş Qərargahda keçirilən görüşdə tərəflər qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın daha da inkişaf edəcəyini əminliklə vurğulayıb və ölkələrimiz arasında təcrübə mübadiləsinin əhəmiyyətini xüsusi qeyd ediblər.

Görüşdə hərbi əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Görüşdən sonra qonaqlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzda aparılan islahatlar və tətbiq edilən yeniliklər, Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə nəticələnən Vətən müharibəsi və digər uğurlu əməliyyatlar barədə brifinq təqdim edilib.

Səudiyyə Ərəbistanı Krallığı Silahlı Qüvvələrinin nümayəndə heyətinə, həmçinin idarəetmə məntəqələri ilə bağlı ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.







# Azərbaycan Quru Qoşunların komandanının Türkiyəyə rəsmi səfəri

*Yanvarın 24-də Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev Türkiyəyə rəsmi səfər edib.*





Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunların komandanı ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.

Görüşdə qardaş ölkə ilə hərbi sahədə əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə edilib. Azərbaycan-Türkiyə tərəfdaşlığının regional təhlükəsizliyə verdiyi töhfələrdən və bunun mümkün inkişaf perspektivlərindən danışılıb.





Görüş zamanı tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

* * *

Türkiyədə səfərdə olan Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev bu ölkənin Silahlı Qüvvələrinin Baş qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.

Ordu generalı Metin Gürak görüşdə Azərbaycan-Türkiyə arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin hərbi əməkdaşlığımızın inkişafına göstərdiyi müsbət təsiri xüsusi qeyd edib, icra olunan birgə fəaliyyətlərin bundan sonra da genişləndiriləcəyinə əmin olduğunu bildirib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq bildirən müdafiə nazirinin müavini səfər çərçivəsində keçirdiyi görüşlərlə bağlı xoş təəssüratlarını çatdırıb.

Görüşdə tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair geniş fikir mübadiləsi aparıblar.

## Türkiyə və Azərbaycanın Quru Qoşunları komandanları Suriya ilə sərhəddə olublar

Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı Selçuk Bayraktaroğlu və qardaş ölkədə səfərdə olan Azərbaycan müdafiə nazirinin müavini, Quru Qoşunları komandanı general-polkovnik Hikmət Mirzəyev Türkiyə Silahlı Qüvvələrinin 6-cı Korpus komandanlığı və Birləşmiş Xüsusi Təyinatlı Əməliyyat Qrupunun ölkənin cənubundakı Kilis vilayətində yerləşdiyi əraziyə baş çəkiblər.



Türkiyə Milli Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyəti Türkiyə ordusunun Suriya ilə sərhəddəki postlarından birində də olub.

S.Bayraktaroğlu Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələrinə Türkiyə ordusunun istifadə etdiyi silah və sistemlər barədə məlumat verib, Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən danışıb.

Türkiyə və Azərbaycan Quru Qoşunları komandanlıqları arasında əməkdaşlığın və koordinasiyanın dərinləşdirilməsi yolları ətrafında fikir mübadiləsi aparılıb.

## ANAMA: Ötən həftə 705,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən yanvarın 20-dən 26-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 108, tank əleyhinə 69 mina və 208 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 705,6 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Təlim-metodiki toplanış keçirilib



Müdafiə Nazirliyinin illik hazırlıq planına uyğun olaraq Azərbaycan Ordusunun qoşun (qüvvə) növlərinin, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə şöbə (bölmə) rəisləri, şöbə və bölmələrin psixoloqları, eləcə də kadr işləri üzrə məsul şəxslərin iştirakı ilə təlim-metodiki toplanışı keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Şəxsi Heyət Baş İdarəsinin rəisi general-mayor Müşfiq Məmmədov çıxış edərək Azərbaycan Ordusunda kadrların idarə edilməsi, ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi istiqamətində ötən il ərzində görülmüş işlər, həmçinin cari ildə qarşıda duran əsas tapşırıqlar haqqında danışıb.

Daha sonra çıxış edən Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov Azərbaycan Ordusunda hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə qarşıya qoyulan tapşırıqların həlli istiqamətində görülən işlərdən geniş söhbət açıb, ideoloji iş və mənəvi-psixoloji təminat tədbirlərinin effektivliyinin artırılması ilə bağlı Müdafiə Nazirliyi rəhbər heyətinin lazımi tövsiyə və tələblərini çatdırıb.



Toplantıda zabitlər ideoloji iş və mənəvi-psixoloji təminatın yüksəldilməsi, kadr hazırlığı və komplektləşdirmə istiqamətində görülən işlərə dair məruzələrlə çıxış ediblər.

Sonda toplanış iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, xidməti məsələlərin həlli ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

## Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyəti ölkəmizdə səfərdədir





*Səudiyyə Ərəbistanı Krallığının Naif Ərəb Təhlükəsizlik Elmləri Universitetinin prorektoru Abdulrazaq Al-Morjanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin rəisi polkovnik Nizami Mövlanov qonaqlarla görüşüblər.

Nümayəndə heyətinə Azərbaycan Ordusunda hərbi təhsil sistemi və bu sahədə aparılan islahatlar barədə ətraflı məlumat verilib. Qonaqlara Vətən müharibəsindən bəhs edən videoçarx təqdim olunub.

Görüşdə, həmçinin ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Səfər çərçivəsində qonaqlar Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin təlim şəhərcikləri, atış meydanları, trenajor bölməsi ilə tanış olublar.



## Polkovnik: Ermənistanın Azərbaycana qarşı növbəti təxribatı heç bir nəticə verməyəcək

*Ermənistanın baş naziri Nikol Paşinyanın Bakıda məhkəməsi keçirilən erməni separatçılarının guya psixotrop dərmanların təsiri altında ifadə verməsi ilə bağlı açıqlaması gülüncdür və bu, İrəvanın ölkəmizə qarşı növbəti təxribatıdır.*

Bunu AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bildirib.

Polkovnik qeyd edib ki, Paşinyan bu kimi bəyanatlarla məsuliyyətdən yayınmağa çalışır: "Heç kimə sirr deyil ki, məhkəmə prosesinə cəlb edilən erməni separatçılarının hamısı həm işğal zamanı, həm də Vətən müharibəsi günlərində xalqımıza qarşı böyük vəhşiliklər törədiblər. Bu gün məhkəmə qarşısına çıxarılan qondarma rejimin nümayəndələrinin bəd əməlləri hər kəsə bəllidir. Hazırda həmin cinayətlərin hüquqi müstəvidə qiymətləndirilməsi, törətdikləri cinayətlərə görə ədalətli cəzanın müəyyənləşdirilməsi prosesi gedir və Azərbaycan həmin prosesi bütün dünyanın gözü qarşısında, açıq və şəffaf şəkildə həyata keçirir. Paşinyanın məhkəmədə dindirilən separatçıların guya psixotrop dərmanların təsiri altında ifadə verməsi ilə bağlı səsləndirdiyi fikirlər absurddur və onlar ifadələrində törətdikləri cinayətlərin bir çoxunun məhz İrəvanın - Paşinyanın göstərişi ilə həyata keçirdiklərini bildirəcəklər. Bununla da, Paşinyanla bağlı yeni ittihamlar, törətdiyi bəd əməllərlə bağlı əlavə sübut və faktlar ortaya çıxacaq. Məhz həmin prosesi qabaqlamaq, ictimai rəyi çaşdırmaq üçün Paşinyan bu cür sərsəm bəyanatlar verir. Ancaq buna ehtiyac yoxdur. Ermənistanın baş naziri bilməlidir ki, heç bir halda məsuliyyətdən qaça, Azərbaycanın separatçılarla bağlı keçirdiyi şəffaf məhkəmə prosesinə kölgə sala bilməyəcək. Azərbaycan xalqına qarşı cinayət törədənlər mütləq şəkildə məsuliyyətə cəlb olunacaq və layiq olduqları cəzanı alacaqlar".

# Şəhidlərimizin xatirəsi daima uca tutulur



44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn Nağıyev Elfaq Azad oğlunun xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, digər qonaqların iştirak etdiyi mərasimdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, çıxış edənlər şəhidimizin şərəfli həyat və döyüş yolundan danışıb, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun Vətən müharibəsində qazandığı tarixi qələbədən, bu şanlı Zəfərin qazanılmasında igid oğullarımızın göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Şəhid E.Nağıyevin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də



şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən şəhidlərimizin xatirəsinə həsr olunmuş şeirlər, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

# Ölkəmizin hava məkanı etibarlı şəkildə qorunur

**(Əvvəli 1-ci səhifədə)**

Döyüş əməliyyatlarında Hərbi Hava Qüvvələri tərəfindən düşmənin hava hücumundan müdafiə sistemi yüksək peşəkarlıqla məhv edildi. Düşmənin bütün növ zenit-raket komplekslərini işə salmağa vadar etmək məqsədilə mövcud aviasiya vasitələri havaya qaldırıldı, kütləvi aviasiya zərbəsi imitasiya edildi. Həmin imitasiya vasitələri Ermənistan silahlı qüvvələrinin zenit-raket komplekslərinin məhvetmə zonasına daxil olmadan müxtəlif manevrlər icra etdilər. Vətən müharibəsinin ilk günlərində Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələrinin uğurla icra etdiyi birgə fəaliyyət nəticəsində Ermənistan silahlı qüvvələrinin hava hücumundan müdafiə sistemlərinin 70 faizi sıradan çıxarıldı. Bundan başqa, əməliyyatlar zamanı qardaş Türkiyə hərbi sənayesinin istehsalı olan, Azərbaycan Ordusunun silahlanmasına daxil edilən "Bayraktar" pilotsuz uçuş aparatı düşmənin döyüş texnikalarını, canlı qüvvəsini yüksək dəqiqliklə məhv edərək ordumuzun əməliyyat şəraitində üstünlüyə malik olmasında əhəmiyyətli rol oynadı.



44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusu tərəfindən həyata keçirilən, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə nəticələnən antiterror əməliyyatı zamanı da Hərbi Hava Qüvvələrinin şəxsi heyəti yüksək peşəkarlıq nümayiş etdirirək qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə icrasına öz töhfələrini verdilər.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə orduda aparılan islahatlar sayəsində ölkəmizin səmasını tam gücü ilə qorumağa hazır və qadir olan Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələrinin də maddi-texniki təminatı gücləndirilir. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəldilir, uçuş və texniki heyətin sosial-məişət şəraiti daha da yaxşılaşdırılır. Qardaş ölkənin "Baykar" şirkətinin istehsal etdiyi üstün taktiki-texniki xüsusiyyətlərə malik "Akıncı" zərbə pilotsuz uçuş aparatının arsenalımıza daxil edilməsi Ali Baş Komandanın ordumuza göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.



Digər döyüş təyyarələri və helikopterlərdə olduğu kimi, pilotsuz uçuş aparatlarında da döyüş uçuşlarının yerinə yetirilməsində texniki və uçuş heyətinin əməyi böyükdür. Pilotsuz uçuş aparatlarını uçuşa hazırlamaq məsuliyyətli prosesdir. Bu mühüm əhəmiyyətli vəzifələri layiqincə yerinə yetirən heyətlə həmsöhbət olub, onların fəaliyyəti ilə daha yaxından tanış olduq.

Zabitlər K.Hüseynli və E.Sultanəliyev bizi salamlayaraq əvvəlcə bölmənin ərazisi, xidməti otaqları və heyəti ilə tanış etdilər. Qeyd etdilər ki, müasir dövrdə pilotsuz uçuş aparatları müharibənin taleyini həll edən ən başlıca amillərdən biridir. 44 günlük Vətən müharibəsində qazanılan qələbəmizdə də pilotsuz uçuş aparatlarının misilsiz xidmətləri olub. Zabitlər bildirdilər ki, pilotsuz uçuş aparatlarına texniki qulluq göstərmək və onları uçuşa hazırlamaq üçün həm nəzəri, həm də praktiki biliklərə yiyələnməlisən. "Heyətimizin hər biri bu sahədə müvafiq kurslar keçmiş təcrübəli hərbi qulluqçulardır. Onlar keçirilən kurs və təlimlərdə pilotsuz uçuş aparatlarının hissə və mexanizmlərinin taktiki-texniki xüsusiyyətlərini öyrənirlər. Hər biri vəzifələrinin məsuliyyətini və vacibliyini yaxşı dərk edir, verilən tapşırıqların icrasında əlindən gələni əsirgəmir".

Texniki və uçuş heyətləri ilə söhbətimiz zamanı hərbi qulluqçular qeyd etdilər ki, keçirilən nəzəri və praktiki məşqlər sayəsində döyüş tapşırıqlarının vaxtında və yüksək dəqiqliklə yerinə yetirilməsi vərdişlərini təkmilləşdirirlər. Hərbi qulluqçular vurğuladılar ki, pilotsuz uçuş aparatları elə bir döyüş texnikasıdır ki, durmadan müasirləşir. "Əlimizdən gələni edir, öz üzərimizdə çalışırıq ki, yeniliklərlə ayaqlaşaq, vəzifələrimizin öhdəsindən layiqincə gələk".

Daha sonra Pilotsuz Uçuş Aparatları Akademiyasında yaradılan şəraitlə tanış olduq. Zabit T.Əlləzov bildirdi ki, akademiyanın əsas məqsədi Azərbaycan Ordusunun arsenalında olan ən müasir pilotsuz uçuş aparatları üzrə yüksək peşəkar kadrların hazırlanmasıdır. Zabit qeyd etdi ki, Hava Təlim Komandanlığının nəzdində fəaliyyət göstərən akademiya Hərbi Hava Qüvvələrinin dəstəyi ilə layihələndirilib, tikilərək istismara verilib. Tədris mərkəzində ən müasir avadanlıqlar və trenajorlar quraşdırılıb. Mayor T.Əlləzov qeyd etdi ki, Hava Təlim Komandanlığında təşkil olunan kurslar hərbi qulluqçuların təhsil alma imkanlarını təmin edir, kadrların peşə hazırlığının inkişaf etdirilməsi, intellektual peşə hazırlığının yüksəldilməsi və təkmilləşdirilməsi məqsədini daşıyır.

Zabit, həmçinin bildirdi ki, Hava Təlim Komandanlığında müxtəlif növ kurslar təşkil olunur. - Bunlardan biri də pilotsuz uçuş aparatları kursudur ki, burada ixtisaslı pilot və texniki heyət hazırlanır. Pilot və texniki heyətin hazırlanmasında əsas məqsəd isə onların öz ixtisası üzrə yüksək bilik və bacarıqlara yiyələnməsini təmin etməkdir.

Burada dərslər necə tədris olunur? - sualımıza cavab olaraq zabit bildirdi ki, cari ilin hazırlıq planına uyğun olaraq keçirilən kurslara qəbul olunan hərbi qulluqçulara nəzəri və praktiki dərslər keçirilir. "Kursun sonunda ixtisas üzrə yekun sertifikat imtahanı verilir. Kursu müvəffəqiyyətlə bitirmiş hərbi qulluqçulara sertifikatlar təqdim olunur və onlar ixtisaslarına uyğun olaraq xidmət etdikləri bölmələrə göndərilirlər".

İstər pilotsuz uçuş aparatları bölmələrində, istərsə də akademiyada gördüklərimiz və yaradılan şərait onu deməyə əsas verir ki, gündən-günə öz döyüş hazırlığını və peşəkarlığını artıran Hərbi Hava Qüvvələrinin şəxsi heyəti Vətən müharibəsinin, eləcə də digər uğurlu döyüş əməliyyatlarında olduğu kimi, bundan sonra da Müzəffər Ali Baş Komandanın istənilən döyüş əmrini hər an yerinə yetirməyə hazırdır. Xalqımız daima əmin olsun ki, arsenalını ən müasir təyyarə, helikopter və pilotsuz uçuş aparatları ilə zənginləşdirən Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə bölmələri ölkəmizin hava məkanını istənilən hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorumağa bundan sonra da qadirdir.



**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Şanlı hərb tariximizin unudulmaz sərkərdəsi



*Azərbaycan Hərb Tarixi Muzeyində iki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 115 illiyinə həsr olunmuş xatirə tədbiri keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Milli Müdafiə Universitetinin Bakı Hərbi Kollecinin bir qrup müəllim və kursant heyəti, veteranlar və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və İkinci Dünya müharibəsində həlak olan soydaşlarımızın, respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov giriş nitqi söyləyərək, görkəmli sərkərdə, Böyük Vətən müharibəsi cəbhələrində şanlı döyüş yolu keçmiş Həzi Aslanovun anadan olmasının 115 illiyinə həsr olunmuş xatirə tədbirini açıq elan etdi. Muzey rəisi bildirdi ki, Böyük Vətən müharibəsinin başa çatmasından 80 ilə yaxın zaman keçməsinə baxmayaraq, Azərbaycan xalqı qəhrəman oğlunu unutmur, illər keçdikcə, nəsillər dəyişdikcə adı yaddaşlara əbədi həkk olur. "Birinci və İkinci Qarabağ müharibələrində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusunun igid tankçıları özlərini əfsanəvi qəhrəman, Tank Qoşunları qvardiya general-mayoru Həzi Aslanov məktəbinin yetirmələri, davamçıları hesab edirdilər".

Tədbir Azərbaycan Milli Elmlər Akademiyasının Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Qərbi Azərbaycan tarixi" şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramovun "Həzi Əhəd oğlu Aslanovun həyatı və hərbi fəaliyyəti" adlı məruzəsi ilə davam etdi. Şöbə müdiri məruzəsində dünya hərb tarixində ən dəhşətli və dağıdıcı müharibələr hesab edilən Birinci və İkinci Dünya müharibələrində almanlara qarşı döyüşlərdə igid həmvətənlərimizin iştirakından, Azərbaycan oğullarının qəhrəmanlığından, xalqımızın sərkərdələr yetişdirməsindən geniş bəhs etdi. "Belə sərkərdələrdən biri də İkinci Dünya müharibəsinin döyüş meydanlarında əfsanəvi qəhrəmanlıqlar göstərən görkəmli eloğlumuz, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Əhəd oğlu Aslanov olub. O, 22 yanvar 1910-cu ildə Lənkəran şəhərində dünyaya göz açıb. İlk təhsilini Lənkəran şəhər 1 saylı orta məktəbində alıb. Sonra Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinə daxil olub. Hərbi təhsilini Leninqrad Süvari Məktəbində davam etdirib. Həzi təhsilini başa vurduqdan sonra Kotovsk adına III Bessarabiya süvari diviziyasında taqım komandiri kimi hərbi xidmətə başlayır. 1941-ci ilin noyabrında Böyük Vətən müharibəsinin ağır döyüşlərinin getdiyi bir zamanda qəhrəman həmyerlimiz Moskva ətrafında döyüşlərdə iştirak edir. Həzi Aslanovun tankçıları düşmən qüvvələrini ağır itkilərə məruz qoyur. Hərb elminin mahir bilicisi Həzi Aslanov tank qoşunlarının taktiki nəzəriyyəsinə gətirdiyi yeniliklərlə təcrübədə düşmənə ağır zərbələr endirirdi. Onun Böyük Vətən müharibəsi cəbhələrində döyüş salnaməsi çox zəngindir. Ağır cəbhələrdə keçirilmiş əməliyyatlarda göstərdiyi qəhrəmanlıqlar həmyerlimizə, xalqımızın igid oğluna çoxlu sayda orden və medallar qazandırıb. Qəhrəmanın ömür-gün yoldaşı Xavər xanım, Tofiq və Arif adlı iki oğlu xalqımıza əmanət qalıb. Unudulmaz sərkərdənin əziz xatirəsi daima qəlblərimizdə yaşayacaq".



Alim, eyni zamanda, 1991-ci ilin iyununda Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri və tədqiqatçı Musa Bağırovun böyük əməyi olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdı.



Daha sonra tədbir iştirakçılarına iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun həyat və döyüş yolundan bəhs edən "General" sənədli filmi nümayiş olundu.

Həzi Aslanov irsinin araşdırmaçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək, əvvəlcə tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi. Görkəmli sərkərdənin nəvəsi general-mayor Həzi Aslanovun salamlarını tədbir iştirakçılarına çatdırdı. Polkovnik Abdulla Qurbani çıxışında əfsanəvi general, hərb tariximizin unudulmaz sərkərdəsi Həzi Aslanovun doğum gününün Moskvada, Sankt-Peterburqda və başqa şəhərlərdə yüksək səviyyədə qeyd olunduğunu dedi. O, həmçinin marşalların, ictimai xadimlərin, yüksək rütbəli zabitlərin - general və polkovniklərin iştirakı ilə yubiley gecəsinin keçirildiyindən, unudulmaz sərkərdənin nəsil şəcərəsindən danışdı, Həzi Aslanovun şəxsi həkimi olmuş Baqiaşvilinin vaxtilə qəhrəman həmyerlimizin müəmmalı ölümü haqqında verdiyi məlumatlardan bəzi tarixi faktlar açıqladı. Həzi Aslanovun Zaqafqaziya Hərbi Hazırlıq Məktəbində oxuduğu zamanlarda kursant yoldaşı olmuş Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovla bağlı xatirələrindən danışdı. Hər il Həzi Aslanovun doğum və anım günlərində Müdafiə Nazirliyinin şəxsi heyətinin iştirakı ilə Şəhidlər xiyabanında qəhrəmanın məzarüstü abidəsi önündə tədbirlərin keçirildiyini xüsusi olaraq vurğuladı. Abdulla Qurbani çıxışının sonunda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 115 illiyinə həsr etdiyi "Nəsillərə nümunə" kitabının ilk nüsxəsini eksponat olaraq, muzeyin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahova təqdim etdi.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi vətənpərvərlik mahnılarının səsləndirilməsi ilə sona çatdı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Milli Qəhrəmanlarımız*

# Xocalının qəhrəman komandiri



*Azərbaycanın tarixində mərdliyi, igidliyi və vətənpərvərliyi ilə öz izini qoyan şəxslərdən biri də Tofiq Mirsiyab oğlu Hüseynovdur. O, düşmənə qarşı göstərdiyi əzm və şücaət sayəsində yalnız bir ailənin deyil, bütöv bir xalqın qəhrəmanına çevrilib. Xocalı faciəsi zamanı həyatını itirən qəhrəmanımız Azərbaycan xalqı üçün əsl fədakarlıq nümunəsi olub. Onun adı hər zaman azərbaycanlıların yaddaşında qəhrəmanlıq simvolu olaraq qalacaq. Tofiq Hüseynovun həyat hekayəsi digər qəhrəmanlarımız kimi, gələcək nəsillərə Vətən sevgisini aşılayan bir nümunədir.*

Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynov 19 aprel 1954-cü ildə Xocalıda anadan olub. Hərbi xidmətini Qazaxıstanda yerinə yetirib. Xidmətini başa vurduqdan sonra Xocalı şəhərində hərbi hazırlıq müəllimi kimi fəaliyyətə başlayıb.

O, 1991-ci ildə Xocalıda yaradılmış özünümüdafiə taborunun təşkilatçılarından biri olub və həmin taborun komandiri vəzifəsinə təyin edilib. Tofiq Hüseynov ermənilərin Xocalıya hücumlarının qarşısını almaqda qəhrəmanlığı ilə fərqlənib. Onun rəhbərliyi ilə Xocalı və ətraf kəndlərin müdafiəsində bir neçə uğurlu əməliyyat həyata keçirilib, düşmənə ciddi zərbələr vurulub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı faciəsi zamanı Tofiq Hüseynov dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün son ana qədər döyüşdü. Əsir düşməmək üçün özü ilə birlikdə yaxınlıqda olan düşmən hərbçilərini də məhv etdi və qəhrəmancasına şəhid oldu.

Tofiq Hüseynov göstərdiyi şücaətinə görə 7 iyul 1992-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Xocalı faciəsi zamanı Tofiq Hüseynov ailə üzvlərinin bir neçəsini itirib. Müharibədə anası və atası öldürülüb, qardaşlarından biri əsir alınıb, digəri isə xilas olmağı bacarıb. Bu gün onun varisləri olan övladları Yasəmən, Əfsanə və Murad atalarının xatirəsini yaşadır və bu qəhrəmanlığı gələcək nəsillərə çatdırırlar.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Xocalı soyqırımı - yaddaşlardan silinməyən əsrin faciəsi

**Suallar:**

**1. Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət.**

**2. 26 fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi.**

**3. Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması.**

### Xocalı faciəsi ərəfəsində bölgədə yaranmış ictimai-siyasi vəziyyət

Bəşər tarixinə nəzər saldıqda savaşsız, fəlakətsiz, iztirabsız günlərin sayının çox az olduğunu görürük. Beynəlxalq Millətlər Təşkilatının statistikasına görə, yalnız XX əsrdə baş vermiş müharibələrdə 100 milyondan artıq insan həlak olub. Elə yaşadığımız XXI əsrin də bircə günü belə savaşsız ötüşməyib. Bu müharibələrin içində öz qəddarlığı və insanlığa sığmayan əməlləri ilə fərqlənən elə cinayət aktları var ki, onlara heç zaman və heç cür haqq qazandırmaq mümkün deyil. Ermənistan silahlı qüvvələri və ozamankı sovet ordusu qoşunlarının Xankəndi şəhərindəki 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərinə hücum edərək, azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırımı aktı ümumən bəşəriyyətə, insanlığa qarşı törədilmiş ən qatı cinayətlərdən biri kimi tarixə həkk olunmuşdur.

Sovet dövrünün son 10 illiyində ölkədə baş verən qarışıqlıqdan istifadə edən ermənilər çökməkdə olan imperiya mərkəzinin köməyi ilə yenidən Ermənistanda etnik təmizləmə siyasəti aparmaqla özlərinin "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək fikrinə düşmüşdülər. 1988-ci ildə Ermənistan ərazisində yaşayan 300 mindən çox azərbaycanlı silah gücünə Ermənistandan qovuldu. Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları bütün əraziləri etnik təmizləməyə məruz qoyduqdan sonra daha da həvəslənən ermənilər Azərbaycanın keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistana birləşdirilməsini tələb etməyə başladılar. Həmin dövrdə Qafqazın mədəni beşiyi sayılan Qarabağın həyatında ciddi dəyişikliklər müşahidə olunurdu. Belə ki, artıq burada qatı erməni millətçiləri olan və türklərə - azərbaycanlılara dərin nifrəti ilə fərqlənən bir sıra erməni yazıçı, şair və ziyalılarına yubileylər keçirilir, tez-tez onlarla görüşlər təşkil edilirdi. Bundan başqa, erməni daşnakçı "Krunk" və "Daşnaksütyun" cəmiyyətləri Qarabağda açıq-aşkar anti-Azərbaycan fəaliyyətinə başladı. SSRİ Ali sovetinin bu məsələyə münasibəti vəziyyəti daha da gərginləşdirdi. Artıq tez-tez silah səsləri eşidilir, öldürülən dinc azərbaycanlı sakinlərin sayı artırdı. Mərkəzi hakimiyyətin zəifliyi, hadisələrə müdaxilə etməməsi bu işin nəticələrini daha da ağırlaşdırırdı. Artıq ermənilər mitinqlərlə, bəyanatlarla kifayətlənmir və silahlı mübarizəyə başlayırdılar. Onları bu işdə ruhlandıran isə Qorbaçov hakimiyyəti (SSRİ) və onun yürütdüyü siyasət idi.

1991-ci ilin 18 oktyabrında Azərbaycan Müstəqillik Aktını qəbul etməklə 70 illik sovet əsarətinə son qoydu. Azərbaycan ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdi və dərhal dünyanın mütərəqqi ölkələri ilə tarixi siyasi-iqtisadi əlaqələrini bərpa etməyə başladı. Baş verənlər, əslində, imperiya mərkəzi üçün bütün Qafqazın itirilməsi demək idi. Buna yol verməməkdə israrlı olan imperiya mərkəzi Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinə dəstək vermək yolunu tutdu.

Xocalının işğalına gedən yol Tuğ və Salakətin kəndlərinin işğalından başladı. Azərbaycan Müstəqillik Aktını qəbul etdikdən az müddət sonra bu kəndlər 1991-ci il oktyabrın 30-da, Xocavənd rayonu isə noyabrın 19-da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. 1992-ci il yanvarın 10-da Axullu kəndi və onun ardınca fevralın 11-dən 12-nə keçən gecə isə Quşçular və Malıbəyli kəndləri işğal edildi. Bir neçə gün sonra isə (17 fevralda) Qaradağlı kəndi ermənilər tərəfindən zəbt edildi. 1991-ci il hadisələri Qarabağ ətrafında gedən proseslərin mahiyyətini açdı. Azərbaycan Ermənistan tərəfindən gizlədilməyən təcavüz faktı qarşısında qaldı.

1992-ci ildə Azərbaycanda daxili ictimai-siyasi vəziyyət daha da gərginləşdi. Sovetpərəst siyasət yeridən Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov respublikanın MDB (Müstəqil Dövlətlər Birliyi) çərçivəsində Moskvanın maraqları orbitində qalmasına çalışır və milli ordunun yaradılmasını ləngidirdi. Bunun nəticəsidir ki, 1992-ci ilin əvvəllərində Azərbaycan Ordusu tam silahlanmamış iki tabordan (təxminən 300 nəfər), yaxşı təlim keçməmiş, vahid komandanlığı olmayan DİN, MTN, XTMD (Xüsusi Təyinatlı Milis Dəstəsi) bölmələrindən, yerli özünümüdafiə qüvvələrindən və müxtəlif partiyaların könüllülərindən təşkil olunmuş dəstələrdən (ümumi sayı cəmi 2000 nəfərə qədər) ibarət idi. Bu şəraitdə erməni silahlı dəstələrinin şəxsi heyəti sayca azərbaycanlılardan çox olmasa da, havadarları tərəfindən daha yaxşı təşkil olunmuş, silahlanmış və təlim keçmişdi. Bununla yanaşı, keçmiş imperiyanın (SSRİ) silahlı qüvvələrinin Xankəndi şəhərində yerləşən 366-cı alayının 129 zabit və gizirinin 49-u milliyyətcə erməni idi. Həmin alayın 2-ci taboruna isə milliyyətcə erməni olan mayor Seyran Ohanyan rəhbərlik edirdi.

Artıq 1992-ci ilin fevralında Qarabağda havadarlarının köməyi ilə silahlandırılmış, təlim keçmiş Azərbaycanın ərazisində işğalçı müharibə aparmağa qadir erməni ordu bölmələri var idi. Bu dövrdən etibarən ermənilər Qarabağda və ondan kənarda azərbaycanlılar yaşayan iri yaşayış məntəqələrinin işğalı planının həyata keçirilməsinə başladılar. Ermənistanla quru yol əlaqələri olmayan Qarabağda məskunlaşan ermənilər Qarabağda tələsik yeni vertolyot meydançaları hazırlayırlar. Gorus-Xankəndi və Gorus-Hadrut reysləri təşkil edirdilər. Vəziyyətə tam nəzarət etmək, eləcə də bütün istiqamətlərdə maneəsiz hərəkət etmək və Qarabağda olan yeganə aeroportu ələ keçirmək üçün Xankəndi ilə Əsgəran arasında yerləşən, azərbaycanlıların yaşadıqları Xocalı şəhərini ermənilər ələ keçirməli idilər.

### 26 fevral - Xocalı faciəsi. Xocalının qəhrəmancasına müdafiəsi

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis-Ayrım kəndinin, Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Salakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xocalı Qarabağ hadisələri başlamazdan əvvəl içindən Ağdam-Şuşa və Əsgəran-Xankəndi yolları keçən, Qarabağda yeganə təyyarə meydanı olan bir qəsəbə idi. 1988-ci ildə Ermənistandan qovulmuş azərbaycanlıların və Fərqanədən qaçmağa məcbur olan Ahıska türklərinin bir hissəsi də Xocalıda məskunlaşmışdılar. 1991-ci ilin ortalarında artıq burada 7000-ə yaxın insan yaşayırdı. Həmin ilin axırında ermənilərin şəhərə hücumlarından sonra əhalinin bir hissəsi Xocalını tərk etdi. Faciəli fevral hadisələri ərəfəsində şəhərdə üç mindən bir qədər çox adam qalmışdı. 1991-ci ilin oktyabrından Xocalı şəhəri ilə avtomobil nəqliyyatı əlaqəsi kəsildi. 1992-ci il yanvarın 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Xocalıya son dəfə fevralın 13-də hərbi helikopterlə ərzaq və yanacaq gətirildi. Ermənilər tərəfindən edilən aramsız hücumlara, Azərbaycan rəhbərliyinin Xocalının taleyinə biganə münasibətinə baxmayaraq, əhali öz tarixi vətənini tərk etmək istəmirdi.

Xocalını aeroportun komendantı Azərbaycanın Milli Qəhrəmanı milis kapitanı Əlif Hacıyevin rəhbərliyi ilə sərəncamında olan 1 "Alazan" tipli artilleriya qurğusu, 3 zirehli transportyor, yalnız atıcı silahlarla silahlanmış Milli Ordunun, Xüsusi Təyinatlı Milis Dəstəsinin və yerli özünümüdafiə dəstəsinin döyüşçülərindən ibarət 160 nəfərlik qüvvə qoruyurdu. Fevralın 25-dən 26-sına keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin 366-cı alayının köməyi ilə şəhəri tanklarla və digər zirehli texnika ilə mühasirəyə alıb, bu qədim diyarın dinc əhalisini kütləvi şəkildə qırmağa başladı. Xocalının müdafiəçiləri sayca qat-qat üstün, yaxşı silahlanmış, tankların və digər zirehli texnikanın dəstəyi ilə hücuma keçən düşmənin qarşısını almaq üçün fədakarlıqla döyüşdülər, qeyri-bərabər döyüşdə öz mövqelərindən geri çəkilmədilər və səhərə qədər gedən döyüşdə onlarla döyüşçümüz qəhrəmancasına həlak oldu. Təəssüf ki, döyüşçülərimizin qanı bahasına şəhərdən çıxmağa müvəffəq olan dinc əhalinin çox az hissəsi xilas ola bildi. Soyuq fevral gecəsində 83-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 1275 nəfər əsir götürüldü, 150 nəfər isə itkin düşdü. Öldürülən uşaqların, qocaların, qadınların cəsədləri tanınmaz hala salınmışdı. Xocalının mühasirəyə alınaraq mülki əhalinin şəhəri tərk etməsinə imkan verilməməsi ermənilərin soyqırımı törətdiyini sübut edir. Bu soyqırımı aktı təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə, beynəlxalq sülhə qarşı törədilmiş ən ağır cinayət idi. Xocalı faciəsi yalnız Azərbaycanı deyil, dünyanın bütün ölkələrində bu faciədən xəbər tutan bütün insanları sarsıtmışdı.

Xocalı soyqırımı Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, Qarabağın azərbaycanlı əhalisinin bir hissəsini məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir.

### Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması

Bütün dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilməsi yönündə işlərə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən başlanılıb. Ümummilli Lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra onun təşəbbüsü ilə Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmişdi. Ulu Öndər Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsi hər ilin fevralın 26-sı saat 17:00-da bütün ölkə ərazisində keçirilən sükut dəqiqəsi ilə yad edilir. Hər il Xocalı soyqırımının ildönümü ilə əlaqədar minlərlə insanın iştirakı ilə "Ana harayı" abidəsi önündə anım mərasimi keçirilir. Xocalı faciəsinin qurbanlarını yad edərkən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev bu hadisəni belə səciyyələndirmişdi: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir".

Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılması, Azərbaycan xalqı və ümumən insanlıq əleyhinə törədilmiş son dərəcə ağır hərbi cinayətin beynəlxalq miqyasda siyasi-hüquqi qiymət alması istiqamətində fəaliyyət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu xarici siyasət kursunda mühüm yer tutur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illər ərzində Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyət nəticəsində çox ciddi uğurlar əldə olunub.

Bu faciənin geniş miqyasda tanıdılması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən etibarən dünyanın yüzdən artıq ölkəsində "Xocalıya ədalət!" beynəlxalq kampaniyası həyata keçirilir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsinə həsr olunmuş tədbirlərin təşkil olunması, 30 il ərzində Ermənistan tərəfindən Azərbaycana qarşı yürüdülmüş işğalçılıq siyasəti haqqında əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılır. Bu günədək 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyib. Sosial şəbəkələrdə təşviqat, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər təşkil edilir. Kampaniyanın Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanıtmaq tələbini irəli sürən Müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb.

Hazırda 18 dövlətin milli qanunvericilik orqanı, həmçinin ABŞ-ın 24 ştatı, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı Xocalıda dinc əhalinin qətliamını pisləyən, bunu soyqırımı və insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən çoxsaylı qətnamə və qərarlar qəbul ediblər. Avropa İnsan Hüquqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalıda törədilmiş cinayətə münasibətdə vəhşilikləri törədənlərin davranışını "müharibə cinayətləri və ya insanlıq əleyhinə cinayətlərə bərabər tutulan xüsusi ağırlıqlı hərəkətlər" kimi qiymətləndirərək mühüm nəticəyə gəlib.

Azərbaycan xalqı nəyin bahasına olursa-olsun, Xocalı qatillərini cəzalandırmaq və işğala son qoymaq məqsədi ətrafında bir yumruq kimi birləşdi. Beynəlxalq təşkilatların, Ermənistanın işğalçılıq siyasətini gizli şəkildə dəstəkləyən bir sıra dövlətlərin təzyiqlərinə və təhdidlərinə baxmayaraq, “Dəmir yumruq” Qarabağımızda kök salmış şər yuvasının başına endirildi. 44 günlük Vətən müharibəsi erməni işğalına birdəfəlik son qoydu, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı birləşmələrinin qalıqlarından və separatçılardan təmizləndi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu gün Qarabağın və Şərqi Zəngəzurun bütün ərazisində Azərbaycan bayrağı qürurla dalğalanmaqdadır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## MOİK təmsilçisi ağırlıqqaldırma üzrə Azərbaycan çempionatında birinci olub




25-26 yanvar tarixlərində Ağır Atletika Akademiyasında ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı keçirilib.

Çempionatda Mərkəzi Ordu İdman Klubunu (MOİK) Nazilə Məmmədova təmsil edib.

49 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz birdən qaldırma hərəkətində 55 kq nəticə göstərib.

Təkanla qaldırma hərəkətində isə 70 kq ağırlığı ram edən N.Məmmədova ümumilikdə 125 kq nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə layiq görülüb.

**"Azərbaycan Ordusu"**

## Komandamızın məğlubiyyətsizlik seriyası 5 oyuna çatıb

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Mini-futbol Federasiyasının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında keçirilən III minifutbol turniri davam edir.*



Minifootball Tournament Among Government Institutions, Group C

| # | Komanda | P | W-L | PTS |
|---|---|---|---|---|
| 1 | Müdafiə Nazirliyi | 5 | 5-0 | 15 |
| 2 | QMKİDK | 5 | 5-0 | 15 |
| 3 | Elm və Təhsil Nazirliyi | 5 | 4-1 | 12 |
| 4 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 5 | 3-2 | 9 |
| 5 | Dövlət Gömrük Komitəsi | 5 | 3-2 | 9 |
| 6 | Azərbaycan Beynəlxalq Bankı | 5 | 2-3 | 6 |
| 7 | Azərbaycan Hava Yolları | 5 | 1-4 | 3 |
| 8 | Mərkəzi Bank | 5 | 1-4 | 3 |
| 9 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 5 | 1-4 | 3 |
| 10 | ADRA | 5 | 0-5 | 0 |

Turnirinin növbəti görüşündə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin komandası Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə üz-üzə gəlib.

"C" qrupunda mübarizə aparan komandamız ötən turnirlərdə olduğu kimi, bu görüşdə də rəqibini üstələyərək 8-1 hesabı ilə qələbə qazanıb.

Qeyd edək ki, keçirdiyi 5 oyunun sonunda xallarının sayını 15 çatdıran komandamız qrupun birincisidir.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### Ankarada Qazaxıstanla Türkiyə arasında hərbi əməkdaşlıq planı imzalanıb

Ankarada Qazaxıstanla Türkiyə arasında 2025-ci il üçün hərbi əməkdaşlıq planı imzalanıb.

Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, sənədi Qazaxıstan tərəfindən Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq Departamentinin rəisi polkovnik Oljas Xusainov, Türkiyə tərəfindən isə həmkarı briqada generalı Çatal Ərdoğan imzalayıb.

Sənədin imzalanması Qazaxıstan nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri çərçivəsində baş tutub.

Polkovnik O.Xusainovun sözlərinə görə, ikitərəfli görüş zamanı hərbi təhsil və elm, sülhməramlı fəaliyyət, döyüş və tibbi hazırlıq sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Plan, həmçinin yüksək səviyyəli səfərlərin mübadiləsini nəzərdə tutur.

### Britaniya hökuməti "Rolls-Royce" ilə 11 milyard dollarlıq müqavilə imzalayıb



Böyük Britaniya hökuməti "Rolls-Royce" şirkəti ilə 9 milyard funt sterlinq (11 milyard dollar) dəyərində səkkizillik müqavilə imzalayıb.

"Reuters" xəbər verir ki, bu müqavilə çərçivəsində şirkət nüvə reaktorlarının dizaynını, istehsalını və texniki dəstəyini təmin edəcək. Bu reaktorlar Britaniyanın sualtı qayıq donanmasını gücləndirmək üçün nəzərdə tutulub.

Böyük Britaniyanın Müdafiə Nazirliyi bildirib ki, bu müqavilə çərçivəsində həmişə ən azı bir nüvə silahı ilə təchiz edilmiş ballistik raket daşıyan sualtı qayığın patrulda olması təmin ediləcək. Eyni zamanda, bu müqavilə Böyük Britaniyanın ABŞ və Avstraliya ilə AUKUS müdafiə paktını möhkəmləndirəcək.

Müdafiə naziri Con Hili müqavilənin "Rolls Royce" şirkəti ilə bir neçə kiçik müqavilələni birləşdirərək Britaniyanın səkkiz il ərzində 400 milyon funt sterlinq qənaət edəcəyini bildirib.

"Unity" adlanan yeni müqavilə hazırda tikilməkdə olan "Dreadnought" sinfinə aid nüvə sualtı qayıqları üzərində işləri dəstəkləyəcək. Hökumətin məlumatına görə, bu müqavilə çərçivəsində 1000 yeni iş yeri yaradılacaq və 4 min mövcud iş yeri qorunacaq.



### Şimali Koreya yeni raket sınağı keçirib

Şimali Koreya gəmidən atıla bilən yeni ballistik raketləri sınaqdan keçirib.

Bu barədə rəsmi Koreya Mərkəzi Teleqraf Agentliyi (KCNA) məlumat yayıb. Bildirilir ki, raketlər müəyyən edilmiş hədəfləri dəqiqliklə vurub.

Raket sınağında iştirak edən KXDR lideri Kim Çen In bildirib ki, ölkənin silahlı qüvvələrinin təsir radiusu genişlənib.

### Tramp "Dəmir günbəz" müdafiə sisteminin qurulmasına dair sərəncam imzalayıb



ABŞ Prezidenti Donald Tramp "Dəmir günbəz" raket əleyhinə milli müdafiə sisteminin qurulmasına dair sərəncam imzalayıb.

Bu barədə Ağ evdən məlumat verilib.

Qeyd edək ki, daha əvvəl səhər saatlarında Mayamidə çıxışı zamanı Tramp təcili olaraq amerikalıları qoruya biləcək ən müasir "Dəmir günbəz" raket əleyhinə müdafiə sisteminin tikintisinə başlanılacağını açıqlamışdı.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman



### Azərbaycanın gənc badmintonçuları İranda qızıl medal qazanıblar

Azərbaycanın gənc badmintonçuları İranın Simnan şəhərində keçirilən beynəlxalq turnirdə uğurlu çıxış ediblər.

Yarışda milli komandanın üzvləri 2 kateqoriya üzrə fərqləniblər.

Leyla Camalzadə-Həcər Nuriyeva tandemi 19 yaşadək badmintonçuların mübarizəsində qızıl medala layiq görülüb. Yarışa 1/8 finaldan başlayan idmançılar bütün görüşlərini qələbə ilə başa vurublar.

Ülvi Hüseynov-Əmirxan İmanov cütlüyü isə müvafiq kateqoriya üzrə yarımfinala kimi irəliləyərək bürünc medala yiyələnib.

### Azərbaycan parabadmintonçusu Misirdə 2 bürünc medal qazanıb




Azərbaycan parabadmintonçusu İbrahim Əliyev Misirin paytaxtı Qahirədə təşkil edilən beynəlxalq turnirdə uğurlu çıxış edib.

19 yaşlı gənc paralimpiyaçı həm təklərin mübarizəsində, həm də türkiyəli Sedat Tumkaya ilə birlikdə çıxış etdiyi qoşa yarışda 2 bürünc medala yiyələnib. O, təklərin qrup mərhələsində misirli və hindistanlı rəqiblərini məğlub edərək 1/8 finala vəsiqə qazanıb. İdmançı ardıcıl iki mərhələdə hindistanlı rəqibləri üzərində qələbə qazanıb və yarımfinaladək irəliləyib.

Qoşa yarışda isə qrup mərhələsini misirli və hindistanlı rəqibləri üzərində iki qələbə ilə başa vuran İ.Əliyev və S.Tumkaya tandemi 1/4 finalda da hindistanlı rəqiblərini məğlub edib və turniri yarımfinalda başa vurub.

Baş miçman Cəfərov Rövşən Ayaz oğluna verilmiş SQ № 0019444 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Mehtiyev Elvin Natiq oğluna verilmiş AD № 0061746 nömrəli, matros Həsənli Cavid Cabbar oğluna verilmiş AD № 0034152 nömrəli, əsgər Məmmədov Natiq Fikrət oğluna verilmiş AD № 0056194 nömrəli, əsgər Muradxanov Bağı Şahin oğluna verilmiş AD № 0061753 nömrəli, əsgər Məmmədov İlyas Məmməd oğluna verilmiş AD № 0061748 nömrəli, əsgər Şabanov Şamil Məhəmməd oğluna verilmiş AD № 0056273 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Nuriyev Natiq İbrahim oğluna verilmiş MV № 059060 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qurbanov Elvin Fəxrəddin oğluna verilmiş MV № 131012 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Röyal Camal oğluna verilmiş MV № 114989 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
baş leytenant
Oruc MUSTAFAYEV

Lisenziya № 361
Sifariş № 16
Nüsxə 3663